**UOT: 821.512.162.09**
https://doi.org/10.59849/2409-4838.2026.1.12

# TARİXİ ROMANLARDA AZƏRBAYCAN DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN BƏDİİ TƏCƏSSÜMÜ (1960-1980-ci illər)

**Səbuhi Adil oğlu Qəhrəmanov**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
gahramanovsabuhi@gmail.com

*Məqalədə 1960-1980-ci illər Azərbaycan nəsrində dövlətçilik tarixinin bədii təcəssümü araşdırılmışdır. Bu dövrdə yazılmış tarixi romanlar qədim dövrdən başlayaraq XX əsrin əvvəllərinədək Azərbaycan tarixinin ictimai və siyasi proseslərini əks etdirməklə milli şüurun formalaşmasında mühüm rol oynamışdır. Xüsusilə Səfəvilər dövləti, eləcə də qurucusu Şah İsmayıl Xətainin həyatı və fəaliyyəti tarixi romanlarda müraciət olunan əsas mövzulardan biri kimi diqqəti cəlb edir.*

*Tədqiqatda Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı–1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanları əsasında Azərbaycan dövlətçilik ideyasının bədii ifadə formaları təhlil edilmişdir. Bu əsərlərdə qızılbaşlar hərəkatı, Şah İsmayılın şanlı döyüş yolu və Səfəvi dövlətinin yaranması tarixi hadisələr fonunda real boyalarla parlaq əksini tapmışdır. Göstərilmişdir ki, sovet ideoloji məhdudiyyətlərinə baxmayaraq, yazıçılar tarixi faktlar əsasında milli dövlətçilik ənənələrini bədiiləşdirməklə azərbaycançılıq ideyasının ictimai şüurda yayılmasına mühüm töhfə vermişlər.*

***Açar sözlər:*** *Azərbaycan dövlətçiliyi, Səfəvilər dövləti, Şah İsmayıl Xətai, azərbaycançılıq ideyası, tarixi roman*

## GİRİŞ

XX əsrin 60-80-ci illərində azərbaycançılıq düşüncəsinin ədəbiyyatda təşəkkülü və formalaşmasında tarixi romanların rolu böyükdür. Tarixi mövzuda bədii əsərlərin yaranmasında ilk diqqəti cəlb edən cəhət yazıçıların Azərbaycan tarixinin bütün dövrlərinə müraciət etməsi idi. Qədim epos dövründən başlamış, XII əsr intibah dövrü, XIII əsr monqol işğalı dövrü, XIV əsr Teymur istilası dövrü, XVI əsr Səfəvilər dövrü, XVIII əsr xanlıqlar dövrü, XIX əsr rus işğalı dövrü, XX əsr inqilablar dövrü tarixi romanlarda əsas mövzu kimi işlənərək azərbaycançılıq şüurunun formalaşmasına xidmət edirdi.

Digər tərəfdən diqqət yetirdikdə, burada Azərbaycan tarixinin, məhz zirvə hadisələri, ictimai-siyasi və dövlətçilik prosesləri, böyük ideoloji və fikir hərəkatları ehtiva olunur, işıqlandırılır. Oğuz cəmiyyəti (Anar, "Dədə Qorqud"), Atabəylər (Nəriman Həsənzadə, "Atabəylər"), Şirvanşahlar (Mahmud İsmayılov, "Xaqani"), Hülakilər (Fərman Kərimzadə, "Təbriz namusu"), Səfəvilər ("Bakı–1501", "Qızılbaşlar", "Xudafərin körpüsü", "Çaldıran döyüşü") dövlətləri, hürufilik (İ.Hüseynov, "Məhşər"), xanlıqlar (İlyas Əfəndiyev, "Xurşidbanu Natəvan" və "Hökmdar və qızı"), maarifçilik (Çingiz Hüseynov, "Fətəli fəthi"; Əlisa Nicat, "Nəğməyə dönmüş ömür"), milliyyətçilik (Bayram Bayramov, "Karvan yolu") hərəkatları milli-tarixi şüurun formalaşması mərhələlərini əks etdirir, geniş oxucu və tamaşaçı auditoriyalarına çatdırırdı.

1960-1980-ci illərdə ədəbiyyatın maraq göstərdiyi Azərbaycan tarixinin zirvə məqamlarından biri də XVI əsrin Səfəvilər dövləti və bu dövlətin qurucusu Şah İsmayıl Xətainin həyat və fəaliyyətidir. Bu zaman həmin mövzuda dörd tarixi roman – Əlisa Nicatın "Qızılbaşlar" (1959-1963), Əzizə Cəfərzadənin "Bakı–1501" (1981), Fərman Kərimzadənin "Xudafərin körpüsü" (1982) və "Çaldıran

döyüşü" (1984-1985) qələmə alınmışdır. Romanların hər biri dünya tarixində ad qazanmış Şah İsmayılın möhtəşəm obrazını yaratmağa cəhdlə birgə, azərbaycançılıq ideyasını qabartmaq, təbliğ etmək, aktuallaşdırmaq niyyətlərini də ifadə edir. XV əsrin sonu XVI əsrin əvvəllərinin tarixi materialları buna tam imkan verirdi. Bu dövrdə Səfəvilər dövlətinin yaranması və qüdrətli dövlətə çevrilməsi Azərbaycan tarixinin şanlı səhifələrini ehtiva edir.

## ƏSAS HİSSƏ

### Əlisa Nicatın "Qızılbaşlar" romanında Azərbaycan dövlətçiliyi ideyası

Əlisa Nicatın "Qızılbaşlar" romanının yazıldığı zamandan çox sonra (1983) çap olunması sovet senzurasının milli dövlətçilik tarixinə necə qısqanc yanaşması və onun populyarlaşdırılmasına düşmən münasibət bəsləməsinin bariz nümunəsidir. Eyni zamanda buna səbəb romanda Azərbaycan vurğusunun, azərbaycançılıq ideyasının leytmotiv olaraq keçməsi, əsərin sosrealizmin tələblərindən kənar aşkar millilik ideologiyası ilə yazılmasıdır. XV əsrin sonu XVI əsrin əvvəllərində meydana gələn qızılbaşlar hərəkatı ictimai-siyasi hərəkat olmuş, bu dövrün vahid Azərbaycan dövlətinin yaranmasında başlıca ideoloji rolu olmuşdur. Bu hərəkat Şah İsmayıl Xətainin ulu babası Şeyx Səfiəddinin (1252-1334) şiəlik əqidəsi əsasında yaratdığı, onun adı ilə bağlı səfəviyyə təriqəti zəminində irəli gəlmişdi. Romançı ilk səhifələrdən fiksə edir: "Görünür, elə Şeyx Səfiəddin zamanında da bütün Azərbaycan taxt-tacına sahib olmaq ideyası meydana çıxmışdı... Qızılbaşlar... Kimdir bu adamlar? Azərbaycan tarixində, təkcə Azərbaycan deyil, İran və Kiçik Asiya tarixində, Azərbaycan xalqının taleyində böyük rol oynayan bu qırmızı çalmalı süvarilərin tarixə ilk yürüşləri hardan başlayır?" [7, s. 7]

Romanın əvvəlində "Əsrin mənzərəsi" adlı proloqda XV əsrin ikinci yarısında Azərbaycan hakimliyi uğrunda müxtəlif qəbilə və sülalələrin – Qaraqoyunlular, Ağqoyunlular, Şirvanşahların; ayrı-ayrı tarixi şəxsiyyətlərin – Qara Yusif, Miranşah, Əhməd Cəlairi, Uzun Həsən, Cahan Şah, Qarayoluq Osman, Əbu Səid, Fərrux Yasar, Yaqub Mirzə, Rüstəm Mirzə, Şeyx Cüneyd, Şeyx Heydərin... mübarizə və döyüşlərini müxtəsər xülasə edərək, müəllif hadisələri Azərbaycan Səfəvi dövlətinin yaranması zamanına gətirir: "Onun (Şeyx Səfinin – S.Q.) xələfləri özlərini "Səfəvi" adlandırıb, tədricən həmin məqsəd uğrunda mübarizəyə başladılar. Lakin bu mübarizə yalnız Şeyx Cüneyd zamanında açıq şəkil aldı..." [7, s. 7]

Əlisa Nicat "Qızılbaşlar" romanını qızılbaşlar hərəkatı və qurucu hökmdar Şah İsmayılın bioqrafiyası üzərində qursa da, fəsilləri məqsədli şəkildə orta çağlarda Azərbaycan dövlətinin formalaşması, vahid dövlətə çevrilməsi proseslərinə uyğun: "Gilan", "Şirvan", "Təbriz", "Çaldıran" adlandırır. "Gilan" dövründə qızılbaşlar Ağqoyunluların Şeyx Heydərin övladları Əli, İbrahim, İsmayılı məhvə çalışdığını görüb, Əlinin ölümündən sonra İsmayılı Gilanda gizləməyə, Gilan hökmdarı Mirzə Əlinin himayəsində hərtərəfli yetişdirməyə nail olurlar. Qeyd etmək lazımdır ki, roman Şəhriyarın çağırış ruhlu: "Heydərbaba, mərd oğullar doğginən..." epiqrafı ilə süsləndiyi kimi, hər fəsildə də hadisələrin təsviri eyni çağırış əhvali-ruhiyyəli manifestasiyalarla müşayiət olunur: " – Sən bütün bunları eləməli, bütün bu yaraları sarımalısan. Sən dünyaya göstərməlisən ki, bu torpağın da sahibi var. Bununçün hər cəfaya dözməlisən. Bu yolda sən həm qolunun, həm də ağlının gücü ilə hamıdan baş olmalı, babanın, atanın, görüb qurtara bilmədikləri işi sona çatdırmalısan..." [7, s. 15].

"Şirvan" fəslində Şah İsmayıl doğma yurdu Ərdəbilin fəthindən də əvvəl Azərbaycanın birləşdirilməsini Şirvana yürüşlə başlayır. Bu yürüşün yalnız şimalda qətlə yetirilmiş atası və babasının qisasının alınması ilə yox, bütöv Azərbaycan idealı ilə bağlı olması romanda müasirliklə tarixiliyin vəhdəti kimi səslənirdi: " – Azərbaycanın hər yeri bizə doğmadır... Kim vətənimizin zülm caynağından xilas olmağını istəyirsə, kim Arranı, Şirvanı, Təbrizi, Marağanı vahid, azad, qüdrətli görmək istəyirsə, qoy bu igid kimi atlı, yaraqlı-yasaqlı gəlib bizə qoşulsun..." [7, s. 71-73]. Qızılbaşlar hərəkatı bu yü-

rüş boyu Azərbaycan uğrunda savaşa çevrilir, könüllü qoşulanlar hesabına ikiqat artmış Şah İsmayıl qoşunu Şirvanı fəth edir. Fərrux Yasar məğlub olur, qətlə yetirilir, oğlu Gülüstan qalasına çəkilir. Qızılbaşların Bakı qalasının mühasirəsində də, Gülüstanın mühasirəsində də Şah İsmayılın dilindən millətə çağırışı: “ – Eheyy, qulaq as. Hökmdarınıza deyin ki, biz qan tökmək istəmirik. Biz sizi çapıb-talamağa gəlməmişik. Biz Azərbaycan taxt-tacı uğrunda vuruşuruq. Biz vətənimiz olan Azərbaycanı bir şahlıq ətrafında birləşdirmək istəyirik” [7, s. 150] – bütünlükdə romanın ideya leytmotivini ifadə edir.

“Təbriz” fəslində 1501-ci ildə şahlığını elan etmiş Şah İsmayılın Əlvənd Mirzənin sayca dəfələrlə üstün ordusuna qalib gəlib, Təbrizə yürüşü təsvir olunur. Roman tarixi faktlar əsasında qələmə alınıb; o cümlədən ortaçağ tarixçilərinin əsərlərindən konkret sitatlar dövrün atmosferini olduğu kimi duymağa kömək edir. “Əhsənət Təvarix” əsərindən götürülmüş, Şah İsmayılın tarixi sözləri: “Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı-tacı?” [7, s. 172] – deyə orduya müraciəti, qalanın fəthindən imtina edərək Təbrizə yol alan fatehin əqidəsinin dürüstlüyündən xəbər verir. Təbrizlilər, Azərbaycan taxt-tacı Şah İsmayılı bayram və təntənə ilə qarşılayır. Taxta oturan Şah İsmayılın Qurana əl basıb and içməsi səhnəsi ritual baxımından sanki bugünü xatırladır: “Allahın, peyğəmbər əleyhissəlamın, Həzrət Əlinin və bu müqəddəs kitabın adına and içirəm ki, öz doğma elimə, ulusuma, vətənimə namusla, ədalətlə xidmət edəcəyəm” [7, s. 205].

“Çaldıran” fəslində 1514-cü ildə Çaldıran yaxınlığında Osmanlı ordusuna məğlub olan qızılbaşların qəhrəmanlığı Sultan Səlimin özünü də heyrətləndirir. Müəllif bu döyüşü yalnız Şah İsmayılın labüd məğlubiyyəti və kədərli taleyi fonunda deyil, müasir nəzərlə, iki türk xalqının – osmanlı türkləri və azərbaycanlıların faciəsi kimi təsvir və təfsir edir. Lakin bu tarixi fakt heç də Şah İsmayıl Xətainin qurduğu Azərbaycan dövlətinin sonu demək deyildi. Romanın “Epiloq”unda müəllif müxtəsər xülasə ilə “Şah İsmayıl və sərkərdələrinin yaratdığı qüdrətli Azərbaycan dövlətinin isə təxminən 100 il yaşadığı”nı [7, s. 256], Azərbaycan dövlətçiliyinin sonrakı taleyinə köklü təsir göstərdiyini xəbər verir. Göründüyü kimi, “Ə.Nicat qəhrəmanını müxtəlif vəziyyətlərdə təsvir etsə də, bunların hamısında Şah İsmayıl vətənpərvər bir dövlət xadimi kimi ümumiləşdirilir” [1, s. 264].

**Əzizə Cəfərzadə və Fərman Kərimzadənin Şah İsmayıl mövzusunda romanları**

Şah İsmayıl Xətai (1486-1524) haqqında digər romanların yaranması böyük ictimai-siyasi xadim və şairin 500 illik yubileyi ərəfəsinə təsadüf edir. Bu bir tərəfdən Ümummilli lider Heydər Əliyevin klassiklərin yubileylərinin təntənəli şəkildə qeyd olunması ənənəsinin davamı idisə, digər tərəfdən marksizmin banisi Karl Marksın böyük fateh haqqında “Şah İsmayıl hakimiyyətinin 13 ilində 14 ölkə fəth etmişdir” deyə yüksək fikir söyləməsi ilə bağlı idi. 1980-ci illərin ortalarına doğru sovet rejiminin tədricən zəifləməsi milli respublikalara öz tarixini daha dərindən və sərbəst şəkildə öyrənməyə imkan verirdi.

Əzizə Cəfərzadənin “Bakı–1501” romanında [4] eyni tarixi hadisələr əvvəlcə Şirvanşahlar nöqteyi-nəzərindən, daha sonra qızılbaşlar mövqeyindən şərh olunduğundan milli tarixin dramaturji konfliktlərini üzə çıxarır. Ümumiyyətlə, “Əzizə Cəfərzadənin tarixi romanları ilk növbədə, təsvir olunan dövrün tarixi ruhunu, özünəməxsus ictimai-mənəvi mənzərəsini əks etdirməsi ilə diqqəti cəlb edir” [2, s. 661]. Düzdür, Ə.Cəfərzadənin “Bakı–1501” romanı zaman-zaman tanınmış alimlər (Qulu Xəlilov, Əbülfəz Rəhimov, Ziya Bünyadov və b.) tərəfindən tarixi faktların təhrif olunduğu üçün tənqid edilmişdir. Ancaq bu janrda yazan yazıçıların yaradıcılıqda bədii tə xəyyülə müraciət etməsi təbiidir. “Azərbaycan tarixi romanının inkişaf yoluna nəzər salarkən tarixi gerçəkliklə bədii təxəyyülün paralel şəkildə inikas olduğunu aydın görmək olar” [3, s. 52].

“Bakı–1501” əsərində “Bir sülalənin sonu” deyə, romançı şirvanşahların aqibətini izləyərkən, artıq bu hakimiyyətin zəiflədiyini, yalnız bir bölgəni təmsil etməklə lokal səciyyə daşıdığını, Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslərə laqeyd olduğunu üzə çıxarır. Ərdəbildən, bir zaman

qətlə yetirdikləri Şeyx Cüneyd və Şeyx Heydərin varisi cavan Şeyx İsmayılın peyda olması və ilk qələbələrinə Şirvanşahlar – Fərrux Yasar və oğlu Qazi bəy biganə yanaşır və Şah İsmayılın şimala yürüşünü yalnız qisas almaq cəhdinə yozurlar. Əhali isə bir yandan Şirvanşahların əlli il ərzində ölkədə sabitlik, əmin-amanlıq yaratmasından razılıq edir; digər tərəfdən yeni ideologiyanın tələblərini maraqla qarşılayır, şirvanşahların hardasa günah işləməsini, peyğəmbər yolundan azmasını anlamağa çalışırlar. Romanda azərbaycançılıq ideyası birbaşa qabardılmır, tarixi hadisələrin axarında vahid Azərbaycan dövlətinin zərurət olduğu təsbit olunur.

Əsərin növbəti bölümlərində Şah İsmayıl Xətainin yürüşləri, qələbələri, Təbriz taxtında islahatları, şair və dövlət xadimi kimi fəaliyyəti, Sultan Səlimlə yazışmaları, hərbdən yayınmağın mümkünsüzlüyü və Çaldıran həqiqətləri əksini tapır. Əsərin "Epiloq" adlanan hissəsi maraqlı formada, Şah İsmayılın ömrünün sonunda etiraf-monoloqu kimi qələmə alınmışdır. Burada Xətai tarixən öhdəsinə düşən vəzifələri necə həyata keçirdiyini, nəyə nail olub-olmadığını, qələbələrinin sevincini və məğlubiyyətinin acı nəticələrini etiraf edir. Vətən torpağının bir qarışını belə güzəştə getmədiyini, hər cür qızıl-gümüşdən, hakimiyyət və sərvətdən üstün tutduğunu, parçalar şəklində olan Vətəni bütövləşdirdiyini bəyan edən Şah İsmayıl məzarda da ruhunun rahat olacağını deyir və müraciətini bu sözlərlə bitirir: "Sizə üç əmanət qoyub ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz – can sizin can onlar əmanəti" [4, s. 349]. Tarixin dərinliyindən qoruna-qoruna gələn bu əmanətlər müasir oxucular üçün də müqəddəslik və toxunulmazlıq hisslərini aşılayırdı.

1960-1980-ci illər ədəbiyyatında Şah İsmayıl və onun dövrü haqqında ən parlaq əsər Fərman Kərimzadənin "Xudafərin körpüsü" [6] və "Çaldıran döyüşü" [5] romanlarından ibarət dilogiya hesab olunur. Roman XV əsrin sonu XVI əsrin əvvəllərində Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslər və tarixi-mədəni hadisələrin bilavasitə içindən qələmə alınmışdır. Hadisələri geniş planda, dövrün mənzərəsi və Şah İsmayıl ailəsinin münasibətləri üzərində quran yazıçı tarixin ortaçağlara məxsus ağır ritmini, faktlar və təfərrüatların məntiqini qorumağa çalışmışdır. Birinci romanda hadisələr Şah İsmayılın ana babası Uzun Həsən, ana nənəsi Azərbaycanda ilk diplomat qadın Sara xatun və ümumən Ağqoyunlular sarayının içindən cərəyan edərək, Şah İsmayılın yetişdiyi mürəkkəb mühitə, təqiblər və hakimiyyət davaları ilə müşayiət olunan, qətllər, taxt-tac uğrunda sülalələr arası və ailədaxili münaqişələr, müharibələrlə dolu ictimai-siyasi şəraitə diqqət cəlb edir. Şah İsmayıl belə bir sərt dövrdə, müxtəlif türk tayfalarından olan qızılbaşların və ailəsi – anası Aləmşahbəyim, qardaşları Sultanəli və İbrahimin himayəsində böyüyür, ictimai-siyasi xadim, mahir sərkərdə, hökmdar, şair, fikir adamı, mədəniyyət təmsilçisi kimi formalaşır, yetişir. "Xudafərin körpüsü" Şah İsmayılın Şirvan səfəri və Təbrizdə taxta çıxması ilə başa çatır.

"Çaldıran döyüşü" yetkin tarixi şəxsiyyət Şah İsmayıl Xətainin taxta oturmasından Çaldıran döyüşünə qədər böyük qələbələr və fəthlər, təriqət, din, mədəniyyət və dövlət quruculuğu ilə parlaq fəaliyyət dövrünü əks etdirir. "İti zəka, aydın düşüncə və cəsarəti ilə vətənə olan sonsuz məhəbbəti onun hökmdar xarakterinin əsas cizgilərini təşkil edir" [8, s. 224].

Digər romanlar kimi bu romanın da başlıca qayəsi azərbaycançılıq məfkurəsidir. Yazıçı qəhrəmanını tarixin süzgəcindən keçirərək bu məqam üçün yetişdirir: "Cəsarətli, cürətli, inamlı igidlər bu günü nə qədər gözləmiş, nə qədər arzulamışdılar ki, parça-parça olmuş Vətənin başını bir yerə yığsınlar, gücünü, qüdrətini artırsınlar. Həmin əqidə yolunda Vətən torpağına qanlar tökülmüşdü. Kim bilərdi ki, o böyük məqsədi bu nəsildən aman-zaman ilişib qalmış on üç yaşlı oğlu İsmayıl həyata keçirəcəkdi..." [5, s. 11]

Dilogiyada Şah İsmayılın tarixdə ilk dəfə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırması, bu əsasda intəhasız ordu və mədəniyyət təşkilatçılığı geniş panoram təsvirini tapmışdır. Bu sıradan Şah İsmayılın Kərbəlada doğma türkcədə yazan Füzuliyə böyük rəğbəti, türkdilli şairləri saraya yığması, Azərbaycan dilində şeirlər yazması və yaratdığı ədəbiyyat məclisində iştirakı önəmli detal-

lardır. Tədqiqatçıların qeyd etdiyi kimi: "Romanda rəssam fırçası ilə çəkilmiş mənzərələr saysızdır. İsmayılla, anası Aləmşahbəyimlə, Azərbaycan sərkərdələri ilə, qüdrətli Ağqoyunlu padşahı Uzun Həsənlə, Sara Xatunla, Şeyx Heydərlə, şairlər, aşıqlar, rəssamlarla bağlı epizodlar böyük ustalıq və məharətlə yaradılmışdır..." [5, s. 324-325]

Romanın "Xudafərin körpüsü" adlandırılması, poeziyada olduğu kimi, bir metaforadır; tarixən Azərbaycanın bütövləşməsi dövrünə istinad müasir dövrdə də tarixi Azərbaycanın bütövlüyü ideyasını aktuallaşdırır, rus işğalı və sovet dövründə Araz çayının ayırdığı iki Azərbaycanın birliyinə eyham edirdi.

Beləliklə, artıq 1980-ci illər üçün ədəbiyyatımız o zamanlar sovet rejiminin təbliğ etmək istədiyi kimi, ictimai-siyasi azərbaycançılığın guya XIX-XX əsrlərdən, Azərbaycanın Rusiyaya ilhaqından sonra başlanmasını ifşa etmiş, daha qədimlərdən, dövlətçilik tariximizdən, xüsusən də XIII-XVI əsrlərdən təşəkkül tapdığını parlaq şəkildə göstərmiş, eyni zamanda onu kütləvi auditoriyalara yayaraq ictimai şüurun əsasını qoya bilmişdir.

## YEKUN NƏTİCƏ

Araşdırma göstərir ki, 1960-1980-ci illər Azərbaycan tarixi romanları dövlətçilik ənənələrinin bədii şəkildə yenidən dərk olunması baxımından mühüm mərhələ təşkil edir. Bu dövrdə yazıçılar tarixi hadisələrə müraciət etməklə Azərbaycan dövlətçiliyinin qədim köklərini, məfkurəvi əsaslarını geniş oxucu auditoriyasına çatdırmağa çalışmışlar.

Əlisa Nicatın, Əzizə Cəfərzadənin və Fərman Kərimzadənin romanlarında Şah İsmayıl Xətainin həyatı, keçdiyi döyüş yolu, Səfəvi dövlətini yaratması dövlətçilik ideyasının realizəsi və bədii simvolu kimi təqdim edilir. "Qızılbaşlar", "Bakı–1501", "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanlarında qızılbaşlar hərəkatı, Azərbaycan torpaqlarının birləşdirilməsi və vahid dövlətin qurulması ideyası azərbaycançılıq məfkurəsinin gerçək qələbəsi kimi ön plana çəkilir.

Beləliklə, 1960-1980-ci illərin tarixi romanları Azərbaycan dövlətçilik tarixinin qədim və zəngin ənənələrini bədii şəkildə təqdim etmiş, milli tarixi şüurun və azərbaycançılıq ideyasının formalaşmasına mühüm töhfə vermişdir. Dövlətçilik düşüncəsinin ədəbi ifadə formalarından biri kimi xüsusi əhəmiyyət kəsb edən bu əsərlər Azərbaycan ədəbiyyatında tarixi roman janrının inkişafına da təsir göstərmişdir.

## ƏDƏBİYYAT

1. Axundlu, Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930-2000). – Bakı: Adiloğlu, – 2015. – 550 s.
2. Azərbaycan ədəbiyyatı tarixi: [10 cilddə]. – Bakı: Elm, – c. 7, II hissə. – 2025. – 1160 s.
3. Babazadə, A. Əzizə Cəfərzadə nəsri: tarixi gerçəklik və bədii təsvir. – Bakı: Elm və təhsil, – 2024. – 302 s.
4. Cəfərzadə, Ə. Bakı–1501. – Bakı: Qanun, – 2021. – 352 s.
5. Kərimzadə, F. Seçilmiş əsərləri: [5 cilddə] / F.Kərimzadə. – Bakı: Ağrıdağ, – c. 2. – 2003. – 328 s.
6. Kərimzadə, F. Seçilmiş əsərləri: [5 cilddə] / F.Kərimzadə. – Bakı: Ağrıdağ, – c. 1. – 2009. – 390 s.
7. Nicat, Ə. Qızılbaşlar. – Bakı: Yazıçı, – 1983. – 238 s.
8. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. – Bakı: E.L., – 2012. – 480 s.

## THE LITERARY MANIFESTATION OF THE AZERBAIJANI STATEHOOD TRADITION IN HISTORICAL NOVELS (1960–1980s)

**S.A. Gahramanov**

The article examines the literary representation of the history of statehood in Azerbaijani prose in the 1960s-1980s. Historical novels written during this period played an important role in the formation of national consciousness by reflecting the social and political processes of Azerbaijani history from ancient times to the early twentieth century. In particular, the Safavid state, as well as the life and activities of its founder Shah Ismail Khatai attracts attention as one of the main themes addressed in historical novels.

The study analyzes the literary forms of expressing the idea of Azerbaijani statehood based on the novels *"Qizilbashlar"* by Alisa Nijat, *"Baku–1501"* by Aziza Jafarzadeh, and *"Khudafarin Bridge"* and *"The Battle of Chaldiran"* by Farman Karimzadeh. In these works, the Qizilbash movement, the glorious military path of Shah Ismail and the formation of the Safavid state are vividly depicted with realistic colors against the background of historical events. It is shown that despite Soviet ideological restrictions, the writers made a significant contribution to the spread of the idea of Azerbaijanism in public consciousness by literally depicting the traditions of national statehood based on historical facts.

**Keywords:** *Azerbaijani statehood, Safavid state, Shah Ismail Khatai, the idea of Azerbaijanism, historical novel*

## ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ТРАДИЦИЙ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ В ИСТОРИЧЕСКИХ РОМАНАХ

**С.А. Гахраманов**

В статье исследуется вопрос художественного воплощения истории государственности в азербайджанской прозе 1960–1980-х годов. В романах, написанных в этот период, были отражены политические и общественные процессы истории Азербайджана, начиная с древних времен до начала XX века, сыграв тем самым значимую роль в формировании национального самосознания.

Особо заслуживают внимания темы, затронутые как основные, в исторических романах о государстве Сефевидов, жизни и деятельности его основателя шаха Исмаила Хатаи.

В статье анализируются формы художественного изображения идеологии азербайджанской государственности на основе романов «Кызылбаши» Алиса Ниджата, «Баку-1501» Азизы Джафарзаде, «Мост Худаферин» и «Чалдыранская битва» Фармана Керимзаде. В этих произведениях нашли яркое отражение такие исторические события, как движение кызылбашей, славный боевой путь шаха Исмаила и основание Сефевидского государства. Было показано, что несмотря на существующие ограничения советской идеологии, писатели на основе исторических фактов сумели в художественной форме довести традиции государственности и идею азербайджанства до общественного сознания, что явилось их несомненным вкладом.

**Ключевые слова:** *азербайджанская государственность, Сефевидское государство, шах Исмаил Хатаи, идея азербайджанства, исторический роман*